# Səsi ilə dünyanı fəth edən azərbaycanlı Orfey

*Azərbaycanın dünyaşöhrətli opera və estrada müğənnisi, milyonların kumiri Müslüm Maqomayev 1942-ci il avqustun 17-də Bakı şəhərində anadan olub.*

Azərbaycan xalqının sevgisini qazanmış Müslüm Maqomayevi qədim yunan mifologiyasının qəhrəmanı Orfeylə müqayisə edirlər. O, yeniyetməlik və ilk gənclik illərində Bakı məhəllələrindən birindəki həyətlərində, dostlarının arasında oxuyardı. İlk dəfə 14 yaşında dənizçilər klubunda çıxış edib, 19 yaşında Helsinkidə gənclər festivalının iştirakçısı olub. 1962-ci ildə maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya Festivalına göndərilən gənc Müslüm Bakıya medalla qayıdır. Ümumiyyətlə, Niyazi onu çox sevir, sənətdəki uğurlarına sevinir, qayğısına qalırdı. 1960-cı illərin ortalarında artıq SSRİ və bir sıra digər ölkələrdə tanınan Müslümü Böyük Teatrın rəhbərliyi öz truppasına cəlb etmək istəyirdi. Hətta SSRİ mədəniyyət naziri Yekaterina Furtseva onu şəxsi himayəsinə götürmüşdü. 1966-cı ildə Parisin "Olimpiya" konsert salonunda ilk konsertini verən gənc müğənni 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib, 1969-cu ildə Sopotda (Polşa) keçirilən Beynəlxalq Mahnı Festivalında ilk mükafatını alıb. 1970-ci illərdən sənətini estrada ilə bağlayıb və populyarlıq qazanıb. 1971-ci ildə rejissor Tofiq İsmayılov onun haqqında "Oxuyur Müslüm Maqomayev" adlı film-konsert çəkib. 1975-ci ildə Azərbaycan Dövlət Estrada Simfonik Orkestrinin bədii rəhbəri təyin edilib. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərləri ilə yanaşı, Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsertlər verib, dünya hitlərini, klassik əsərləri, kinolara yazılmış mahnıları məharətlə səsləndirib.

Onun ən böyük arzularından biri İtaliyada təhsil almaq idi. Nəhayət, Azərbaycan Opera və Balet Teatrı tərəfindən "La skala" teatrına təcrübə toplamağa göndərilir. O, hələ uşaqlıqdan Mattia Battistini, Enriko Karuzo, Mario del Monako, Tinna Ruffo kimi italyan klassiklərinin qramplastinkaları ilə maraqlanır, onlardan qiyabi olaraq vokal dərsləri alırdı.





M.Maqomayevə, həmçinin Çenarro Barro, Enriko Pyatsa kimi canlı korifeylərdən dərs almaq nəsib olub. M.Maqomayev Bakıya qayıdaraq "Seviliya bərbəri" tamaşasında səhnəyə çıxır. Görkəmli pianoçu Rauf Atakişiyevlə dostluğu və əməkdaşlığı onun bu yolda daha böyük uğurlar qazanmasına yol açır. "Seviliya bərbəri" operasının hər tamaşası anşlaqla keçir və Bakı tamaşaçıları Fiqaronu - Müslüm Maqomayevi görünməmiş coşqu ilə qarşılayırlar.

O, həmçinin rejissorlar Eldar Quliyev və Qleb Drazdovun filmlərinə musiqi yazırdı. Müslüm Maqomayevin sonrakı yaradıcılıq dövrü Moskva ilə bağlıdır. Rusiyanın tanınmış bəstəkarları onun səsinə uyğun mahnılar yazırdılar. Lakin müğənninin repertuarında Azərbaycan musiqisi, xüsusən də Üzeyir Hacıbəylinin "Sənsiz", "Sevgili canan" romansları və digər əsərlər əsas yer tutub. O deyirdi: "Mən həyatımı Azərbaycansız təsəvvür etmirəm". Müslüm Maqomayevə 31 yaşında SSRİ Xalq artisti fəxri adı verilib. Mükafatlarını saymaqla bitməz. 2002-ci ildə M.Maqomayevə "İstiqlal" ordeni təqdim olunub, təqdimat mərasimində ulu öndər Heydər Əliyev çıxış edərək Müslüm Maqomayevin dünyaşöhrətli sənətkar olduğunu vurğulayaraq onun oxuduğu mahnıların hamı tərəfindən sevildiyini deyib: "Müslümün incəsənətdə hər şeyi var... Dünyada görkəmli müğənnilər çoxdur, amma belə səs heç kimdə yoxdur". Müğənninin repertuarına, ümumilikdə, 600-dək əsər daxildir. Bəstəkarlıq sahəsində də özünü sınayan M.Maqomayevin yaradıcılığında Xalq şairi Nəbi Xəzrinin sözlərinə yazdığı "Azərbaycan" mahnısı xüsusi yer tutur və bu gün də sevilə-sevilə dinlənilir. Böyük Teatrın primadonnası Tamara Sinyavskaya ilə ilk görüşü 1972-ci ildə Bakıda Filarmoniyada keçirilən rus incəsənəti dekadasında olub. Robert Rojdestvenskiy onları tanış edib. T.Sinyavskaya gülümsəyərək Müslümü ağzını açmağa qoymayıb: "Siz hələ özünüzü təqdim edəcəksiniz? Sizi ki, bütün İttifaq tanıyır...". Bu nağıl 3 oktyabr 1972-ci ildə başlayır və... heç vaxt bitmir. Sinyavskaya xaricdə təcrübə keçəndən sonra Moskvaya qayıdır və onlar bir daha ayrılmırlar. T.Sinyavskaya deyir: "Mən həmişə yanımda kimin olduğunu bilmişəm. O, bütün şöhrətinə baxmayaraq, qiymətləndirilməmiş qaldı. Tək müğənni kimi yox, insan kimi unikal idi. Müslüm Allah tərəfindən seçilmişdi. Sadəcə istedadı ilə hamını sehrləmişdi. Mən Azərbaycanda hələ də əvvəlki kimi "gəlin"əm. Bu sözü Müslümlə toyumuzda Heydər Əliyev demişdi: "Sən Tamara, bizim gəlinimizsən...".

Müslüm Maqomayev 2008-ci il oktyabrın 25-də ürək xəstəliyindən vəfat edib və Bakıda Fəxri xiyabanda dəfn olunub.

Dahi sənətkar "Yeni görüşlərədək, Müslüm!" (1963), "Abşeron ritmləri" (1970), "Azərbaycan incəsənəti" (1970), "Oxuyur Müslüm Maqomayev" (1971), "Ruslan və Lyudmila" (1972), "Dostluq himni" (1974), "Bəstəkar Müslüm Maqomayev" (1976), "Nizami" (1982), "Gümüşgöl əfsanəsi" (1984), "Ürək nəğməsi" (1989), "Rəşid Behbudov ulduzu" (1996), "Nə gözəldir bu dünya..." (1999), "Əliyevin əli" (2000), "Sonuncu şahid" (2004), "Azərbaycan namınə!" (2004) kimi filmlərdə çəkilib.

2011-ci il sentyabrın 15-də Müslüm Maqomayevin Mədəni-Musiqi İrsi Fondunun dəstəyi ilə hazırlanmış müğənninin abidəsinin təntənəli açılış mərasimi keçirilib. 2018-ci ildə isə Kiyevdə Müslüm Maqomayev adına parkın açılışı olub və abidəsi ucaldılıb. Həmçinin 2019-cu ildə Dnepr şəhərində küçələrdən birinə onun adı verilib. 2020-ci ildə Rusiyanın "Birinci Kanal"ında "Maqomayev" bioqrafik serial (baş rolda Miloş Bikoviç) yayımlanıb.

2022-ci il avqustun 17-də Bakının Dənizkənarı Milli Parkında Müslüm Maqomayevin abidəsinin açılışı olub. Heykəlin müəllifi heykəltaraş Ömər Eldarovdur. 2023-cü ildə Azərbaycan Respublikasının Moldova Respublikasındakı Səfirliyi qarşısında müğənninin barelyefi qoyulub.

Ötən il avqustun 21-də Sea Breeze Resort ərazisində SSRİ və Azərbaycan SSR Xalq artisti, əfsanəvi musiqiçi Müslüm Maqomayevin imzalı ulduzunun təntənəli açılış mərasimi keçirilib. "Əlamətdar haldır ki, Müslümün ulduzu məhz bu il - dahi şəxsiyyət Heydər Əliyevin 100 illik yubileyi ili açılır. Müslümün taleyi Heydər Əliyevin və onun ailəsinin adı ilə sıx şəkildə bağlıdır", - deyə Müslüm Maqomayevin həyat yoldaşı, sovet və rus opera müğənnisi, SSRİ və Azərbaycanın Xalq artisti Tamara Sinyavskaya mərasimdə qeyd edib.

Yerə həkk olunmuş ulduz postamentinin açılışı M.Maqomayevin repertuarındakı ən məşhur mahnılardan birinin - "Mavi əbədiyyət"in sədaları altında baş tutub. Tamara Sinyavskayanın da imzalı ulduzunun açılışı təşkilatçıların ona sürprizi olub. Beləliklə, həyatda olduğu kimi, bu iki ulduz həmişə birlikdə parlayacaqlar.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**